# ÖZÜN GETDİN, SÖZÜN QALDI



Göyərçin Abidqızı
filologiya üzrə fəlsəfə doktoru

***"...Aşıq sənəti...xalqa, kütlələrə daha yaxındır, xalqın həyəcan və arzularını, xalq musiqisinin başqa növlərinə nisbətən daha parlaq əks etdirir. Aşıq ictimai mövqeyinə görə kəndliyə, zəhmətkeş xalqa yaxındır... Aşıq sənəti xalqın öz yaradıcılığıdır."***

*Üzeyir Hacıbəyov*

Şifahi xalq ədəbiyyatının ən çox araşdırılan və ən zəngin xəzinəsi aşıq ədəbiyyatıdır. Aşıq, ozan xalqın içindən çıxan, xalqın dərd-sərini yaxşı bilən, el ağsaqqalı və hamının hörmət bəslədiyi bir insandır. Dədə Qorqud kimi bir ozanı olan türk xalqlarının hər bir boyunda sayılıb-seçilən ozan, aşıq, akın və s. adlandırılan el sənətkarları yaşamış, yaratmışlar. Bu sənətkarlar yaradıcılıqları ilə xalqın, saz-söz həvəskarlarının, arasdırmaçıların daima diqqət mərkəzində olmuşlar. Aşıqlar elin gözündə məsləhətçi, bilici, ağsaqqal kimi təcəssüm etmişlər. Onlar müxtəlif bölgələrə səfərlər etmiş, el şən-liklərində, məclislərində iştirak etməkləri ilə bərabər dünyagörüşünə, insani keyfiyyətlərinə, müdrikliyinə, ağsaqqallığına və hazırcavablıqlarına görə xalqın böyük hörmətini qazanmış, sayılıb, sevilmişlər. Ustad aşıqlardan Dədə Qorqudu, Dədə Turabı, Dədə Yediyarı, Aşıq Müseyibi, Dədə Şəmşiri, Dədə Ələsgəri, Aşıq Alını, Aşıq Hüseyn Bozalqanlını, Aşıq Xındı Məmmədi demək olar ki, tanımayan yoxdur. Sənətkar elini, xalqını sevdiyi kimi, el də sənətkarını sevmiş, başı üzərində saxlamışdır.

XIX əsrdən etibarən aşıq şeiri güclü inkişaf etmiş, adları dillərdə dastan olan klassik sənətkarlar nəsli yetişmişdir. Bu əsrdə Aşıq Alı, Aşıq Musa, Məhəmməd Hüseyn, Aşıq Ələsgər, Əziz, Əhməd, Aydın, Bəylər və s. görkəmli aşıqlar yazıb-yaratmışlar.

## Aşıqların xüsusi adət-ənənələri,

***qayda-qanunları vardır. Aşıq Abbas, Aşıq Ələsgər, Hövrə İman, Aşıq Hüseyn Bozalqanlı öz yaradıcılıqlarında həmişə bu mövzudan bəhs etmiş, aşıqlığın mənəvi keyfiyyətlərini hərtərəfli açıqlamışlar. Bu ustadların təsvirinə görə, aşıq hər şeydən əvvəl xalqın sevinci, dərd-kədəri ilə "yoğrulmuş", bir sözlə xalqın içindən çıxan və xalqa bağlı şəxsiyyət olmalıdır.***

Öz əsərlərini xalq ruhunda yazan bu yaradıcı sənətkarların müəyyən hissəsi saz çalmaq, məclis keçirmək peşəsindən kənar olsalar da onların yaradıcılığı aşıq şeirinin bütün xüsusiyyətlərinə uyğun olduğu üçün ustad - dədə aşıq kimi şöhrətlənə bilmişlər. Bu hal aşıqlıq sənəti yaranandan bu yana daima davam etmişdir. Saleh Şirvani, Vidadi, Vaqif, Molla Cümə və s. kimi xalq ruhunda yazıb-yaradan şairlərin aşıq kimi tanındıqlarını, onların əsərlərinin aşıq repertuarında ifa olunduğunu görürük.

Elə sənətkarlar da vardır ki, onlar yalnız aşıq musiqisi, aşıq havaları yaratmaqla məşğuldurlar. Gözəl saz havalarını məharətlə ifa edən, lakin səsləri olmadığına görə oxumayan bu sənətkarlar cavan aşıqlara saz çalmağı öyrədir, özləri də yeni-yeni havalar yaradaraq klassik və müasir aşıqların əsərlərini bu havalarda oxunmaları üçün gənc aşıqlara kömək edirlər. Lakin elə aşıqlar da vardır ki, onlar yalnız aşıq tərzində yazan sənətkarların və ustad aşıqların yaratdıqları qoşmaları, dastanları ifa etməklə kifayətlənir, özləri yazıb-yaratmır, musiqi havaları düzəltmirlər. Belə sənətkarlar öz səs-lərinin məlahətli, aşıq sənətinə vaqif olmaq bacarıqları ilə şöhrətlənirlər. Gözəl və məlahətli səsi ilə məclis keçirmək qabiliyyətinə malik olan belə sənətkarlar aşıq yaradıcılığının mühafizə edilməsində mühüm rol oynayırlar.

## Klassik aşıq poeziyasının

***görkəmli nümayəndələrindən biri də Aşıq Ələsgərdir. El arasında Dədə Ələsgər, Ustad Ələsgər kimi də tanınmışdır. Yuxarıda da dediyimiz təsnifatlandırma baxımından Ələsgər yaradıcı-ifaçı aşıqdır. El arasında Dədə Ələsgər deyə çağrılmasını isə Paşa Əfəndiyev belə izah edir: "...Doğrudan da, sonralar öz yaradıcılıq qabiliyyəti, müdrikliyi, ağsaqqallığı ilə seçilən el sənətkarlarına dədə deyildiyi məlumdur. XVI əsrdə Dədə Yediyar, XVII əsrdə Turab Dədə, XVIII əsrdə Dədə Qasım (Xəstə Qasım), XIX əsrdə Dədə Ələsgər, Molla Cümə, Aşıq Hüseyn Bozalqanlı və başqaları buna misal ola bilər... Dədə ozanlığı ilə bərabər həm də müdrik, bilici, müşgül işləri yoluna qoyan bir el ağsaqqalı olmuşdur. Başqa sözlə, əgər ozanlar ən çox qopuzla çalıb-oxuma, ifa ilə bağlı idilərsə, dədələr həm də yaradan sənətkarlar, məşhur oğuznamələrin əsl yaradıcıları olmuşlar."***

Aşıq Ələsgər xalq yaradıcılığının ən böyük nümayəndələrindən biri və onun ən uca zirvələrini fəth edən sənətkarlardandır. Ələsgər aşıq poeziyasını zənginləşdirmiş, həm məzmun, həm forma rəngarəngliyi, həm də xalq dilindən istifadə baxımından Azərbaycan və türk şeirinə misilsiz xidmətlər göstərmişdir. O, bir sıra görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara qüvvətli təsir göstərmişdir.

H.İsmayılov "Dədə Ələsgər: həqiqət və sənətin dastan vəhdəti" məqaləsində "Ələsgərin hələ çox gənc ikən misli-bərabəri olmayan şeirlər deməsi, qısa vaxtda saz çalıb-oxumağı, Aşıq Alı kimi ustad bir aşığı da heyrətləndirməsi onun sənətinin sehrli, əlçatmaz, vergili olduğunu göstərir. Ələsgər Miskin Abdal, Qurbani, Abbas kimi haqq aşığı, vergili bir aşıqdır..." deyir. Aşıq Ələsgər demək olar ki, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş xalq yaradıcılığı və ədəbiyyatımızda böyük iz buraxmışdır. Dövrünün savadlı şəxslərindən biri olan Aşıq Ələsgər bir çox dünya elmləri ilə yanaşı islami da dərindən bilən biri kimi ad qoymuş və bu sahəyə öz yaradıcılığında geniş yer vermişdir:

*Ələsgər xümsünən zəkatın verə,*
*Əməlin mələklər yaza dəftərə.*
*Hər yanı istəsə, baxanda görə,*
*Təriqətlə bu sevdalı gərəkdir.*

Aşıq Ələsgər yaradıcılığı olduqca maraqlı, təbiətə, məhəbbətə, dövrün çətinliklərinə həsr edilmiş bir-birindən gözəl şeirlər qoyub gedən bir şəxsiyyət olmuşdur.



Akademik Bəkir Nəbiyev, Aşıq Ələsgərin həm özünə, həm də yaradıcılığına yüksək qiymət verərək, oxucunun gözü önündə aşığın bütünlüklə insani keyfiyyətlərini canlandırır: "Aşıq Ələgər gözəllik aşiqi, təmizlik vurğunu, nəcib insani hisslər, yüksək bəşəri fikirlər tərənnümçüsü idi. Bu incə ruhlu, böyük amallı sənətkarın estetik idealını öyrənmək üçün onun gözələ, insan əxlaqına, aşığa-sənətkara və nəhayət, yaşadığı dövrə, mühitə münasibətinə dair əsərləri çox qiymətli mənbədir."

Aşıq şeirinin gözəl nümunələrini yaradan Ələsgər ustadnamələrinin birində aşıqlıq sənətini belə qiymətləndirmişdir:

*Aşıq olub tərki-Vətən olanın*
*Əzəl başdan nurkəmali gərəkdir.*
*Oturub durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdir.*

Bu misralarla Aşıq Ələsgər aydın göstərir ki, xalq aşığının qarşısında çox mühüm vəzifələr durur və aşığın fikrincə "aşıqlıq yoluna qədəm qoyanlar" dərin, hərtərəfli biliyə və yüksək əxlaqi keyfiyyətlərə malik olmalıdırlar.

Şeirlərinin böyük əksəriyyətini bədahətən deyən Aşıq Ələsgər dodaqdəyməz, müxəmməs, cıqalı təcnis, gəraylı, qıfılbənd, divani və s. şeir növlərinə özünün bənzərsiz sənət nümunələrini yaradıb. Əminə Eldarova "Azərbaycan aşıq sənəti" kitabında Ələsgər sənətinə, yaradıcılığına verdiyi qiymət, bu el aşığının özündən sonra bir məktəb qoyduğunu vurğulayır.

"Ələsgər özünəməxsus təkid və ardıcıllıqla aşıqları həqiqətə və ədalətə səsləyir, onların qəlbində el məhəbbəti olmasını aşıqların ən zəruri məziyyətlərindən biri sayırdı. Ustad aşıqların özləri məhz belə yüksək keyfiyyətlərə malik idilər. Onlar öz yüksək ilhamlı şeirlərini bədahətən qoşurdular. Bu aşıqların çoxunun hətta savadı da yox idi. Lakin onlar həyatı yaxşı bilirdilər. Xalq mənəviyyatını dərindən öyrənir və duyurdular, tarixə, klassik ədəbiyyata, dini məsələlərə yaxşı bələd idilər. Özləri yüksək əxlaqi keyfiyyətlərə malik olan bu el sənətkarları başqalarını da ləyaqətli olmağa səsləyirdilər".

## Klassik şeirimizdə

***qəzəl və qoşma janrlarında əsasən məhəbbətdən bəhs edilir, məhəbbət mövzusu qələmə alınırdı. Böyük sənətkarlarımızdan ustad Füzuli də öz qəzəllərində açıq-aşkar aşiq olmasıyla fəxr etmiş, vurğunu olduğu "Söz"də, əsiri olduğu eşqdə minbir məna axtarmışdı. Özünün aşiq sənətkar olduğunu böyük şənətkar bir şeirində belə vurğulayır:***

*Məndən Füzuli, istəmə əşari mədhizəm,*
*Mən aşiqəm, həmişə sözüm aşiqanədir.*

Lakin aşıq şairində məhəbbət daha real, daha həyati, bəzən də daha açıq-saçıq şəkildə ifadə edilmişdir:

*Axşam səhər çeşmə, sənin başına.*
*Bilirsənmi neçə canlar dolanır?*
*Büllur buxaq, alma yanaq, ay qabaq,*
*Şahmar zülfü pərişanlar dolanır.*

"Dolanır" şeirində Aşıq Ələsgərin bu təbii, aydın və sadə təşbihlərlə verilmiş təsviri klassik aşıq şeiri üçün səciyyəvi sayıla bilər.

Məhəbbət mövzusu üstünlük təşkil edən qoşmalarının böyük bir hissəsi ülvi, təmiz sevgidən, qız və gəlinlərimizin gözəlliyinə həsr edilmiş "Bəyistan", "Güləndam", "Gülpəri", "Telli", "Sarıköynək" və s. kimi şeir nümunələri Aşıq Ələsgər yaradıcılığının incilərindəndir.

"Gözələ", "Getmə", "Amandı", "Dünya", "Yetmədi", "Gərəkdi", "Dağlar", "Düsdü", "Sarı köynək", "Tellərin", "Üzün məndən niyə döndü?", "Xəbərin varmı", "Dolanım", "Varıymış", "Görmədim", "Olmaz", "Çıxıbdı" kimi qoşmalarında həm qız-gəlinlərimizin gözəlliklərini, təmiz məhəbbətin saflığını, həm də xalqın ağır həyatını təsvir etmiş, zülm və zorakılığı, ictimai ədalətsizliyi, din xadimlərini, cəhalət və nadanlığı, tüfeyliliyi kəskin tənqid etmişdir.

Aşıq "Hayıfsan" qoşmasında anlaşıqlı, mənalı dillə qız-gəlinlərimizi qeyrətli-namuslu olmağa çağırır və gözəlliklərindən istifadə edib "namusu-qeyrəti satma"mağa çağırır:

*Danışdıq, barışdıq mərhəmətinən,*
*İnciklik araya qatma, hayıfsan!*
*Sən tacir olmazsan bir manatınan,*
*Namusu qeyrəti satma, hayıfsan!*

Doğma yurdunun təsviri, təbiətə vurğunluğu aşığın "Dağlar" qoşmasında bütün gözəlliyi ilə tərənnüm edilir:

*Bahar fəsli, yaz ayları gələndə*
*Süsənli, sünbüllü, lalalı dağlar.*
*Yoxsulu, ərbabı, şahı, gədanı*
*Tutmaz bir-birindən alalı dağlar.*

Aşıq poeziyasının görkəmli nümayəndələrindən olan Aşıq Alının şagirdi olmuş Ələsgər onun sayəsində aşıq sənəti ənənələrini dərindən öyrənmiş, ustadı haqqında həmişə xoş sözlər söyləmişdir.

Əminə Eldarova qeyd edir ki: "Hərtərəfli hazırlanmış, dərin düşünülmüş tədris metodu, əsasında Aşıq Ələsgər beş-altı il müddətində öz şagirdlərinə aşıq sənəti üçün zəruri olan bütün keyfiyyətləri aşılayır, onların musiqi və poetik istedadlarının cilalanmasına bədahətən şeir qoşub havacata uyğunlaşdırma qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirirdi. Azərbaycan aşıq sənətinin onlarla görkəmli nümayəndəsi-Aşıq Əsəd, Ağkilsəli Aşıq Qurban, Aşıq Nəcəf, Aşıq Ağayar və başqaları aşıq sənətinin sirlərini ustad Ələsgərin yanında öyrənmişlər."

Aşıq Ələsgər yaradıcılığının öyrənilməsi və təbliğ edilməsi müasir aşıq sənətinin daha da inkişaf etdirilməsi, klassik aşıq ənənələrinin qorunub saxlanması və daha da təkminləşdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. H.İsmayılov dediyi kimi: "Ustad Ələsgərin poeziyası, eyni zamanda onun haqqında yaradılmış dastan-rəvayətlər göstərir ki, bu qüdrətli sənətkarın sənəti dərin köklərə bağlıdır."

***Aşıq Ələsgər böyük bir nasehdir. Aşığın neçə-neçə bəndi, onlarla beyti və misrası xalqın dilində atalar sözü və zərb-məsəl olmuşdur. "Qarı düşmən bir də gəlib dost olmaz", "Haqdan yanan çıraq bad ilə sönməz", "Haqq-nahaq seçilə haqq divanında", "Dövlətdən qismətin beş arşın ağdır", "Can deməklə candan can əskik olmaz", "Qaytarmazlar pirə gələn qurbanı", "Qiyamət odundan pisdi tənə söz", "Dost uzaq olmaqla könül yad olmaz", "Siçan pələng olmaz, tülkülər aslan", "Kişi gərək dediyindən dönməsin", "Güzaran xoş olub, gün xoş keçəndə, ağ otaqdan tövləxana yaxşıdı" və s. kimi belə dəyərli kəlamlar oxucuya (dinləyiciyə) tərbiyəvi fikirlər aşılayır.***

Aşıq Ələsgər heç vaxt öyünməyən, əsərini, xidmətlərini şişirtməyən, sadə və təvazökar bir insan olmuşdur. Bunu böyük aşığın "Dünyada" rədifli qoşmasının son bəndində də görürük:

*Yığılar məxluqat, qurular məhşər*
*Boyunlarda kəfən, əllərdə dəftər*
*Onda vay halına, yazıq Ələsgər,*
*Özün getdin, sözün qaldı dünyada.*

**Aşıq şeirinin ən böyük nümayəndələrindən hesab olunan Dədə Ələsgər aşıq yaradıcılığının bütün sahələrinə müraciət etməklə ədəbiyyatımızda, xalq yaradıcılığında dərin və silinməz iz buraxmışdır. Böyük sənətkar xalq dilindən maksimim yararlanaraq qosduğu gəraylı, təcnis, müxəmməs, qoşma və digər aşıq şeiri növləri ilə həm mövzu, həm də forma rəngarəngliyi baxımından təkcə Azərbaycan şeirinə deyil ümumən türk xalqlarının şeir yaradıcılığına misilsiz töhvələr vermişdir.**